# HƏSRƏTİNDƏ OVUNAN ŞAİR

**Kəlbəcərdən məndən sonra gəlmisən,**
**Dağların yazını bəlkə görəsən?**
**Qəlbim kimi "Dilqəmi"yə köklənən,**
**Bəxtimin sazını bəlkə görəsən?**

**Qayalarda kəkliklərin yerişin,**
**Dərələrdə buludların görüşün.**
**Dəlidağda bənövşənin gülüşün,**
**Nərgizin nazını bəlkə görəsən?**

**Əyyub gəldi sorağını alınca,**
**Qalmayaydı bu günlərə qalınca.**
**Zəncirində sızıldadı dalımca,**
**Bu yollar uzunu bəlkə görəsən?**

Bu misralar el şairi Əyyub Cabbarovun "Ay arxadan baxan illər" (Bakı, 2012) kitabından götürülmüşdür. "Bəlkə görəsən" adlı bu şeirdə qaçqın həyatı yaşayan, yurd həsrətli bir el şairinin ağrısı-acısı verilmişdir. Bir milyondan artıq qaçqının doğma ocaq, yurd həsrətini bacarıqla ümumiləşdirən şair həsrətində ovunmaqdan başqa ayrı yol tapa bilmir. Ömrünün çoxunu keçirtdiyi doğma yurdun mənzərəsini "kəkliklərin yerişin", "bulaqların görüşün", "bənövşənin gülüşün", "nərgizin nazını" poetik ifadələri ilə xatırlayan şairin burnunun ucu göynəyir. Sonra gələndən bunları xəbər alan şair içini göynədən doğma yerlərin həsrətində ovunmaqla, oxucunu da ovundurur. Bu ovunmaq da ağlamaq, sızlamaq görünmür. Həssas oxucu göz yaşının içə axmasını və daxili aləmin göynərtisini hiss etməyə bilməz.

Şair qaçqınlıq həyatından bezib. Böyük bir el-oba pərən-pərən düşüb. Doğmalar bir-birinə həsrət qalıbdı. Bu günlərə qalıb yaşamaq istəmir.

**Zəncirində sızıldadı dalımca,**
**Bu yollar uzunu bəlkə görəsən?**

Bu iki misrada erməni vəhşiliyinin və qaçqınçılığın ağlasığmayan anları verilibdi. Düşmənin qəfil hücumundan özlərini itirib çaş-baş qalmış adamlar, o cümlədən şairin özü, imkanlaşdırıb bağlı qalan iti zəncirdən aça bilmir. Şeirdə itin adı çəkilməsə də, bu heyvanın insanın ən sədaqətli dostu olması və sahibinin - çörək verənin arxasınca getməsini "Bu yollar uzunu bəlkə görəsən?" deməsi ilə bədiiləşdirir.

**Bu gecə yuxuma düşdü kəndimiz,**
**Bostan yeri bellənmişdi gördüm ki!**
**Sarı nərgiz, gözəl lalə, bənövşə,**
**Biçənəkdə güllənmişdi gördüm ki!**

**Kəklik səkdi, elə bildim mələkdi,**
**Şalı düşdü, Əyyub gördü lələkdi.**
**Dəlidağda qartal elə qıy çəkdi,**
**Təkə daşdan millənmişdi gördüm ki!**

"Gördüm ki!" şeirindən göründüyü kimi doğma kəndi yuxuda görən şair doğma yerləri əvvəlki kimi abad görür. Abad qoyub gəldiyi doğma yerləri dağılmış kimi qəbul etmir, şair. Şairin həsrətində bir ümid sezilir. Həmin ümidin işığına uçmaqla özünü ovundurur. Bir xəbər bilmək istəyir, şair. Bu arzu ilə də özünü tələsik doğma yerlərdən gələnin yanına çatdırır. Maraqlıdır şeirdə şair ürəyindən keçənləri - həsrət nəğməsini oxuyur, amma söylənilən cavab barədə bir söz deyilmir. Demək bu bədii təxəyyülün məhsuludur. Öz-özünə lay-lay demək, öz-özünü ovundurmaqdır. Bax, 25 ilə yaxındır ki, bu gözəl el şairi öz-özünü ovundura-ovundura 80 yaşın astanasına qədəm qoyubdur.

***

Kəlbəcər ədəbi mühiti ilə çoxdan - gənclik illərindən tanışam. Etiraf edim ki, Əyyub Cabbarovun yaradıcılığı ilə yaxın illərdə tanış olmuşam. Yaxşı xatırlayıram: - Gəncə Yazarlar Birliyinin növbəti yığıncağı idi. Söz Əyyub müəllimə verildi. Orta boylu, qarayanız, danışanda hər sözü ölçüb-biçən, sanki müsahibinin qəlbinə toxunmaqdan ehtiyat edirmiş kimi sözə başlayan şairin çıxışı hamı kimi mənim də xoşuma gəldi. Əyyub müəllim sözünü bitirər-bitirməz əyləşən yoldaşların bəziləri "Sənəm" haqqında yazdığınız şeiri söyləyin, dedilər. Hiss elədim ki, yoldaşların bəziləri Əyyub müəllimlə və yaradıcılığı ilə çoxdan tanışdırlar. Qələm yoldaşlarının xahişini yerə salmayan şair bir az duruxdu və baxışları hardasa uzaqlara (sonralar bildim ki, "Sənəm"i şeiri 1957-ci ildə yazılıbdı) - yeqin ki, Dəlidağda qoyub gəldiyi, gənc-likdə, sevildiyi illərin axtarışına tikilibmiş. Bir azdan həzin-həzin səslənən misralarda şair çoxdan yığıncaqda əyləşənləri unudub öz həsrətində ovunurdu. Bəlkə də mənə belə gəlirdi. Deyə bilmərəm.

**Əziz qardaş, adım çıxdı yadımdan,**
**Dəlidağda elə gördüm Sənəmi.**
**Bir göz atdım, toxunmadı nişana,**
**Dedi yeri, qocalmısan sən, əmi.**

**Sual etdim: - Hardan belə gözəlsən?**
**Bəlkə enib səmalardan gəlmisən?**
**Göz dikib üzünə dedim: gözəlsən,**
**Gülüb dedi: Dərdi qalıb sənəmi?**

**Dedim: A mürvətsiz, umacağım var,**
**Dedi: - kəsə danış, sözünü qurtar.**
**Dedim: göz vurmuşam özümə qaytar,**
**Dedi: Əyyub, gəl aldatma Sənəmi.**

Bu şeirin məndə oyatdığı təəssürat Əyyub müəllimlə yaxınlaşmağımıza səbəb oldu.

Sonralar şairin yaradıcılığı ilə tanışlıq zamanı gördüm ki, "Sənəm"i şeiri Əyyub yaradıcılığının emblemi hesab edilə bilər. Şeir nəinki Azərbaycanda, hətta qonşu xalqların da məclislərində aşıqlar tərəfindən sevilə-sevilə ifa edilir. Şairin 20 yaşında, qanının qaynar vaxtında yazılmış bu şeirdən hiss olunur ki, Sənəm onun ilk məhəbbəti imiş. Bir çox adamların həyatında baş vermiş ilk məhəbbət kimi şair də ilk məhəbbətinə qovuşa bilmir. Heç vaxt yaddan çıxmayan ilk məhəbbət şairin qəlbində ömrü boyu sağalmaz yaraya, unudulmaz bir həsrətə çevrilir. Şair bu həsrəti sonralar belə pıçıldayır:

**Ürəyimdə bitdiyintək əzizim,**
**Görürəm ki, gözlərimdə bitmisən.**
**Kirpiyimi endirməyə qorxuram,**
**Qorxuram ki, endirəndə itəsən.**

***("Yaxşı gözəlsən")***

Göründüyü kimi sadə xalq danışıq dilində danışan şair, sözlərə yeni məna çaları verməklə oxucunu öz həsrətində ovundurmağa çalışır. "Gözlərimdə bitmisən" - ifadəsi ilə sözə yeni məna verən şair "gözlərimdə elə bitmisən ki, hara baxsam səni görürəm" demək istəyir. Sonrakı misrada kirpiyini endirmək istəmir. Qorxur şair! Görəsən, nədən? Qorxur ki, kirpiyini endirsə bir anlığa da olsa sevgilisinin surəti gözü önündən itər. İstəmir bunu şair. Kirpiyi endirməmək də mümkün deyil. Fizioloji hala qarşı çıxmaqla şair özünün məhəbbət yolunda dözümlülüyünü sübut etmək istəyir. Nə qədər incə, zərif bənzətmədir. Budur məhəbbətin aliliyi! Budur yaddan çıxmayan ilk məhəbbət! Yoxsa gündə bir gözəlin nazü-qəmzəsinə, işvə-nazına məhəbbət mədhi yazmaq məhəbbət şeiri deyil.

Əyyubun içdiyi bulaqların suyu necə təmiz və pakdırsa, şeirləri də, məhəbbəti də elə təmiz və pakdır.

Əyyub yaradıcılığında iki paralel xətt var. Vətən və məhəbbət həsrəti. Hər iki həsrətə tab gətirə bilməyəndə şair özünü bədii sözün ecazkar qüvvəsi ilə ovundurmağa salışır.

Şairin yaradıcılığı ilə tanış olanda Əyyubu məhəbbət şairi adlandırmaq daha düzgün olar. Elə bir insan ola bilməz ki, o məhəbbətin naqafil oxuna rast gəlməsin. Etiraf etmək lazımdır ki, heç bir gələm sahibi Əyyub kimi məhəbbətinə sadiq ola bilməz.

Şairin məhəbbət mövzusunda yazılmış hansı şeirini nəzərdən keçirsək həmin şeirdə bir Sənəm həsrətinə, bir Sənəm göynərtisinə, bir Sənəm ahu-naləsinə rast gəlmək olar.

Bax belə eşqə, belə məhəbbətə qibtə etməmək mümkün deyil. Sevmək budur! Bu cür təmiz sevginin andına sadiqliyin nəticəsidir ki, "Sənəm və Əyyub" dastanı yaranıb. Məhəbbətdə və sənətdə bu cür zirvə fəthi hər sənətkara qismət ola bilmir.

"Sənəm və Əyyub" dastanının yaranması el-obanın və sənətsevərlərin Əyyub yaradıcılığına, Əyyub məhəbbətinə verdiyi yüksək qiymətdir. Əyyubun məhəbbət mövzusun-da olan əsərlərini şərti olaraq iki hissəyə ayırmaq olar. Gənclik və qocalıq dövründə yazılmış məhəbbət şeirləri. Bu iki bölməni birləşdirən bir xətt var. O da Sənəm həsrəti. Yeri gəlmişkən bir məsələni vurğulamaq bəlkə də yerinə düşər. Məhəbbətin gözəlliyi, ülviliyi, böyüklüyü onun həsrətindədir. Bəlkə də, şair sevdiyinin vüsalına qovuşsaydı ola bilsin ki, belə gözəl əsərlər yarada bilməzdi.

**Bəlkə də gözlərin bəxt ulduzumdu,**
**Hər baxanda ürəyimi görmüsən.**

***("Görmüsən")***



**Elə baxdın məni mənnən apardın,**
**Məni çaşdırmısan o vaxtdan bəri.**

***("Bəri")***

**Sənin sevilməyin su içimidi,**
**Mənim sevilməyim Allaha qalıb.**

***("Qalıb")***

**Çəmən oldum ayağına gəlmədin,**
**Bilmədim ki, sənin meylin göləymiş.**

***("Elə beləymiş")***

**İtdim gözlərinin dərinliyində,**
**Yol tapmadım, bir çıxılmaz quyuymuş.**

***("Vəfan buymuş)***

və s. beytləri nəzərdən keçirəndə hiss olunur ki, bu misralar şairin gənclik illərinə təsadüf edir.

Aradan nə az, nə çox otuz il keçibdi. Şair yenidən Sənəmlə qarşılaşır. Artıq Sənəmin 50 yaşı var. 1987-ci ildə yazılmış "Qalıbdı" şeirini nəzərdən keçirək.

**Məni körpəlikdən, ay zalım Sənəm,**
**Ovsunlaşmış göz könlümdə qalıbdı.**
**Hələ deyirsən ki, nədən tanıdım,**
**Nə vardırsa düz könlümdə qalıbdı.**

**Deyirsən ki, yenə mənə şeir yaz,**
**İndi hər nə yazsam o Sənəm olmaz.**
**O vaxt "əmi" dedin, bu vaxt "utanmaz",**
**İncitdiyim söz könlümdə qalıbdı.**

**Nə qalıbdı sənə qurban olmalım,**
**Əgər gülsən, gülməlidi bu halım.**
**Sənin saçın ağdı, mənim saqqalım,**
**Gizlədiyin köz könlümdə qalıbdı.**

**Elə baxdın elə bildim sabahdı, o,**
**Yaman gəldi ömrümüzə bivaxt o,**
**Nə sən Sənəm, nə mən Əyyub, nə vaxt o,**
**Hər nə qalıb öz könlümdə qalıbdı.**

Eh, şair! Zaman verdiyini tədricən elə geri alır ki, heç adamın özü də hiss etmir. Zamanın hər şeyə gücü çatsa da, məhəbbətə gücü çatmır. Çox düz deyirsən ki, gizlədiyin köz könlümdə qalıbdı. Elə həmin közün qığılcımlarıdı ki, yazdığın misralara səpilərək Əyyubu bu gün oxuculara sevdirir:

**Danışdırdım söhbətimə uymadı,**
**Yaxınlaşdım yaxınına qoymadı.**
**Əlli ildə Sənəm məni duymadı,**
**Bir qoşmam Sənəmi elə tanıtdı.**

***("Tanıtdı")***

Duydu şair! Sənəm səni duymasaydı bu qədər gözəl şeirlər yarada bilməzdin. Amma bilirsən necə duydu? Dili ilə "səni sevirəm" demədi. İşvə-nazı ilə, süzgün baxışları ilə, səni görəndə yerişini itirməsi, yanaqlarının allanması ilə duydu. Bəs bu "sevirəm" demək deyilmi? Məhəbbətin ülviliyi, əlçatmazlığı elə budur:

**Qoy baxım doyunca, həsrətim çoxdu,**
**Hənirində isinsin, əlim soyuqdu.**
**Aramızda sərhəd, qadağa yoxdu,**
**Mərhəmətin mərdanədi bu gecə.**

***("Bu gecə")***

**Qapına gəlmişəm bir insafa gəl,**
**Əyyub əllərini uzatmış belə.**

***("Bəlkə")***

Bax, bu misraları yazdıran həsrətdir. Çox heyif ki, ömrün ixtiyar çağını yaşayan şair "Məndən Əyyub adlı quru ad qalıb" pessimist bir hissə qapılır. Xeyir şair. Sizdən quru ad yox, şair Əyyub adı qalıbdı.

Məhəbbətin rəngarəng çalarlarını müxtəlif bədii boyalarla verən şair "Yoxsa" adlı şeirində qadın dünyasının sehrindən baş aça bilmədiyini etiraf edir:

**Allahın sirridir qadın dünyası,**
**Sehrdən yaranıb canları yoxsa.**
**Başdan-başa məhəbbətdi, sevgidi,**
**Qanımızda axır qanları yoxsa.**

**Gözəllik şeytanın əməli deyil,**
**Allahın sirridir, deməli deyil.**
**Nə yaxşı gözəllər yeməli deyil,**
**Yeyib qurtarardıq onları yoxsa.**

Şair, qadın gözəlliyi haqqında min illərdi yazılıb və yazılacaqdı. Amma, yenə də qadın dünyası bir sirr olaraq qalacaqdır.

***

Əyyub yaradıcılığında şairə şöhrət gətirən "Sənəm" adlı şeiri ilə bərabər "Ana" şeiri də var. Ana haqqında bir çox qələm sahibləri söz deyibdir. Hamısı da bir-birindən gözəl. Amma Əyyubun "Ana" şeiri özünəməxsusluğu ilə oxucular tərəfindən xüsusi rəğbətlə qarşılanıbdı. Şeirin bir bəndinə nəzər salaq.

**Ölmə, torpaqlara verməzəm səni,**
**Yerin qollarımın arasındadı.**
**Təbii sularla yumaram səni,**
**Suyun gözlərimin qarasındadı.**

Anaya məhəbbətin zirvə tərənnümüdür. Bizcə bundan o yana yol yoxdur.

***

Yuxarıda qeyd etdik ki, şairin yaradıcılığında iki həsrət özünü göstərir: Biri məhəbbət, digəri isə vətən həsrətidir. Məhəbbət həsrətinə qovuşa bilməyən şair bu mövzuda yazdığı şeirlərlə özünü ovundurmaqdır. Vətən həsrətinə isə çox böyük inamla son qoymağı qarşısına məqsəd qoyan şair oxucularını da, o cümlədən bizi də həmin inamın işığına çağırır.

**Baxaq görək Əyyub, qismət nə vermiş,**
**Qürbət dadın yaşayanlar bilərmiş.**
**Ölməyəcəm Kəlbəcəri görməmiş,**
**Yaşayıram hələ canda dözüm var.**

***("Var")***

Biz də 80 yaşını yaşayan şairin arzusuna, inamına qoşuluruq və deyirik! Gün o gün olsun Əyyub müəllimin 100 illiyini Kəlbəcərdə qeyd edək.

**Fazil SƏNAN**
**Yazıçı-publisist.**